***FİKRƏT QOCA***

# ***KÖNLÜMDƏN KEÇƏNLƏR***

## Əzizlərim

Mənim bu minatür şeirləri yazmağım nə qədim Yapon şeirinin, nə də Şərqin artıq Ömər Xəyyamı sayılan rübai formasının təsirindəndir. 1934-cü ildən ta 1956-cı ilə kimi Azərbaycan ənənəvi vəznli qafiyəli şeirində gözə çarpan, getdikcə formalaşan bir şeir hökmranlıq etməyə başladı. Şair şeirin sonluğu üçün iki, üç və ya dörd maraqlı misra tapırdı. Bu misraları demək üçün əvvəlinə uzun-uzadı qafiyəli, vəznli bir əhvalat yazırdı. Mən də ağ qarğa kimi görünməmək üçün əvvəl beş-altı belə şeir çap etdirdim. Sonra topladığım fikirləri mümkün olduğu qədər artıq sözdən, misradan təmizləyib iki, üç və ilaxır misralar şəklində yazdım, oxucuya təqdim etdim.

Yaradıcılığımın ilk çağlarından indiyə kimi çap olunan, olunmayan kiçik həcmli şeirlərimi bu kitabda toplamışam. Güman edirəm, bu kitabım Sizə təyyarədə, qatarda, maşında yaxşı yol yoldaşı olacaq.

***Hörmətlə, FİKRƏT QOCA***

***GÖZLƏRİNİ GENİŞ AÇ,***
***DÜNYA BÖYÜSÜN…***

## *XOŞUM GƏLİR*

Göy güləndə xoşum gəlir,
Həya ilə üfüqdə dan
        söküləndə xoşum gəlir.
Mən göz yaşı sevməyirəm,
    yarpaqlardan şeh damlası
        töküləndə xoşum gəlir.

***

Hər ürək –
   oxunmamış bir varaq.
Hər üzün qırışında
Bir ömrün hekayəti.
Hər gözün də bir aləm
Sevinci, şikayəti…
Min sirrin sirdaşıdır
Yol yanında hər ağac.
Hər evin qapısını
Roman cildi tək aç.

**1965**

## *YER KÜRƏSİ FIRLANIR*

Sərhədlər çalın-çarpaz, silahlar yığın-yığın,
Guya budur pənahı dünyada yaşamağın.
Elə silahlar gəzir hava ilə, su ilə
Silər Qalaktikadan yer kürəsi sözünü.
Heç bir şeydən xəbərsiz, yaşamaq arzusuyla
Yer kürəsi fırlanıb günə verir özünü.

**1964**

## *GÜNƏŞ*

Günəş niyə yanır?
Günəşin nə dərdi?
Yansaydı çoxdan qurtarardı,
Canının adi hərarəti bu qədərdi.

***

Gülün gözəlliyi öz qatilidi,
Bülbülün qəfəsi şirin dilidi.

## *ÖMÜR HAQQINDA*

Qarşımda bir ömür durur,
Min zəhmətlə bəzənəsi.
Ürəyimdə şivən qurur,
Hədər gedən anın səsi.
Taleyimin saatı tək,
Gecə-gündüz yatmır ürək.
Sinəmdəki hər çırpıntı
Bir addımdır,
Ömür gödək.

**1963**

## *MƏN ÇOX DÖZÜMLÜYƏM*

Döşənib torpağa üzü qoyulu,
Ayağım altında kölgəm ağlayır.
Daş-qaya deyilən dağlar üstünə,
Başını qoyubdu ölkəm ağlayır.
Bu vəfasız dünya elə gözəldi,
Deyirəm, bəlkə də bir vaxt düzəldi,
Sözümdən kövrəlib «bəlkə»m ağlayır.
Mən çox dözümlüyəm, kişi ağlamaz,
Mənim göründüyüm görkəm ağlayır.

## ***DÖVRÜMÜZ***

Yer kürrəsinin paralelləri kimi,
Əsəblərimin gərilmiş telləri kimi
Gərilib zaman!
Əl vurma, aman, aman!

### *NƏ BİLİM*

Nə bilim dünyada
kim vardı onda.
Atam səma olub,
anam da torpaq,
Mən yarananda.

## ***İNSANAM***

Ömrümün sonuna doğrudur atdığım hər
addım.
Hələ üstəlik,
Atom bombası, böhtan, nüvə silahı, tənə,
Bunları da özümü öldürmək üçün yaratdım.

**1966**

## *ASANDIR*

İnsan –ən uca zirvə, -
İnsan kimi yaşasa.
İnsan ən kiçik zərrə, -
kiçilməyə başlasa…
Bu fərqin arasında
  insan…insan…insandı.
Ucalmaq da asandı,
  kiçilmək də asandı.

## YARANMIŞLAR

Yaranmışlar içində insan,
Allahın ən sevimli uşağıdı.
Hər insanın ağlı
Öz evinin işığıdı.
Hər insan öz ağlından
    Bir az aşağıdı.
Hər kəs özünü ucaltmaq istəyir,
Heç olmasa,
Öz ağlına çatmaq istəyir.

## *KEÇİD*

İndi keçid dövrüdür,
Qıl körpüdən keçilir…
Yamanlar da seçilir,
Yaxşılar da seçilir.

***

Alçaq, yüksək damlar –
Yaxşı ki, var,
daha çətindir mənzilsiz yaşamaq.
Alçaq, yüksək adamlar –
yaxşı ki, var,
Daha çətin olardı onsuz, sənsiz yaşamaq.
Onu görməsəydim,
                    sənə dost deməzdim.

### *VAQİF SƏMƏDOĞLU -60*

Qırx ilin dostuyuq
 bir dəfə sözümüz çəp düşmədi,
 Yaxşı gündə, pis gündə.
 İki tərs keçi
 bir körpüdən keçdi.
Bizdən bir cüt ayaqqabı qaldı
 yer kürəsinin üstündə,
Onlar da taykeşdi.

## *BİR DOST AXTARIRDIM*

Bir dost axtarırdım, həmdəm gəzirdim,
Axırda itirdim özüm özümü.
Mən hara baxdımsa, dönük üz gördüm,
Səni görmək üçün yumdum gözümü.

## *OLMAZ*

Eh, belə xırman olmaz,
Heç belə zaman olmaz.
Dəni tək-tək görünür,
Bu qədər saman olmaz.
Yaxşılar təklənibdi,
Bu qədər yaman olmaz.
Qanmazdan Allah keçir,
Namərdə aman olmaz.

## *YUXUYOZANLAR*

Bütün uğurları özüm qazandım,
Bütün nöqsanlarım tale yazandı.
Qarışıq yuxudu bu şirin ömür,
Hər kəs öz xeyrinə yuxuyozandı.

## *VƏTƏNPƏRVƏR*

Oğluna qoyub vətəninin adını,
Milli geyimə vərdiş elətdirir
arvadını.
Elə arvad-uşağına sərf eləyib
ömrünü, istedadını.

1963

***

Öldü varlı ata,
    qaldı varisi.
Dedi ki: -Mənimdir
        torpaq, xaniman.
Bu vaxt eşidildi
  Torpağın səsi:
Görək kim kimindir,
          ey cavan oğlan!

**1959**

## *ACGÖZ*

Hansı acgöz dişləyib
Ayın parasını.
Yer adamının işi deyil.
Lap yuxarılarda olar
Belə iştah,
Qoşulma özünə iş tap.

## *ƏLAC YOXDUR*

Hər ağacın dibindən
    cücərən küçüklər olur,
Hürməsələr də adları küçükdü.
Küçükləri başına bəladı
            hər ağacın.
Yoxdur ayrı əlacın,
Ya onları çıxardıb
          başqa yerdə gərək əkəsən,
Ya da çıxardıb başından əkəsən.

***2008***

***

Kəsmə yalan ağacını,
Kəsmə rüşvət ağacını.
Kəsmə pöhrələyəcək,
Çək, çək
Çıxart
    at kökündən,
Torpaqda qalan
        kökdən qorxuram mən.

## *KÖKÜ VARSA*

Əslən bülbüldürsə, səsini dinlə,
Yaxşısı bir yana, pisi gözəldi.
Bütün bülbüllərin səsi gözəldi,
Atası, anası sərçə deyilsə.

## ***QAYA***

Qaya zirvədən qopdu,
Qopdu
        bir nalə çəkdi,
Bilmirdi yazıq qaya
Nə qədər aşağı düşsə,
Öz torpaq əcdadından
Aşağı enməyəcəkdi.

## *BABALARIM*

Biri qaçaq olub,
mərd olub,
biri qoçaq olub,
mərd olub
biri kasıb olub,
mərd olub.
Bəs bu namərdlər hardandı,
bax bu mənə dərd olub.

## *ÇEÇENLƏRİN SƏSİ*

Səsim içimdə mərmi olur,
İçimdə partlayır, boğulur.
Çeçenistanın səsi kimi,
Eşidilmir dünyada,
Eşitsələr də nə fayda,
Gələn olmaz fəryada.

**16.11.1999**

## *VƏTƏN HAQQINDA*

Kor ilan kimidir vətənsiz insan.
Vətən kərtənkələ quyruğu deyil,
onu bərk ayaqda qoyub qaçasan.
Vətəni bölünən ölər, dirilməz,
əlində od olar, qəlbində ayaz.
Bir dəfə ayrılıb, birləşən xalqı
Bir də heç kəs heç vaxt parçalayammaz

## *İNSAN*

Bütün ağrılardan güclüdü insan,
Bütün canlılardan çox ağrıyandı.
Necə yaşayasan ağrımayasan,
Ağrıyan dövrandı, gündü, zamandı.
İnsan təbiətin dostu, hakimi,
Gərək o, həmişə imdada çatsın.
Daşqınlar önündə dursun dağ kimi
Zamanı qəlbindən süzsün, durultsun.

## *SEHRBAZ ZAMAN*

Bir yaxşı var, iki yaman,
Bir doğru var, iki yalan.
Axırda da məğlub olan
Yalan, yalan…
Sehrbazdı qoca zaman.

***

«Günəş səyyarələrin tonqalıdır,
Səmanın ürəyidir, dünyanın çırağıdır» -
yazdıq.
Amma bəzimiz başqasını qızdırmaq
üçün yanmazdıq.

**1963**

## *GİLEYLƏNMƏYİR*

Taleyə uzanır narazı əllər,
Dinən: «mənim payım az oldu» -deyir.
Allah ağlımızı elə düz bölüb,
Heç kəs öz ağlından gileylənməyir.

## *ÇAĞRILMAMIŞ BAYATI*

Deyirlər qocalanda adamın ağlı çaşır,
Yalandı, lap ağ yalan.
Ağıllı yaşa dolub bir az da ağıllaşır,
yaş ötdükcə axmaqlar bir az da axmaqlaşır.

## *BİR YOL ÜSTƏ*

Bir yol üstə
                rastlaşdıq üz-üzə.
Nadan dedik bir-birimizə.
Ayrıldıq,
İkimiz də bir-birimiz haqda
Zurna çala-çala.
Sən mən gələn yola getdin,
Mən sən gələn yola.

## *ƏSL KİŞİLƏR*

Kişi ağlamaz,
Bəli, beləyik biz.
Lazım gəlsə, ölərik biz,
Yaşarmaz gözlərimiz.
Kişilərin xəlvət axan
Göz yaşlarından yaranıb dəniz.

## *DƏNİZDƏ SUSUZ*

Susuzluqdan alışıb
Dodağım, dilim yanır.
Ayağımın altında
Nəhəng dəniz dayanır.
Dalğa başımdan aşır,
Susuzluğum yatmayır.
Dənizin nə günahı,
Dənizin hər şeyi var.
Cəmi tək bircə içim
Şirin suyu çatmayır.

## *GÖZ YAŞI DEYİL*

Yox, bala, bu göz yaşı deyil,
Şəhərimizin damından damır.
Yəqin göyə nəsə olub,
Allah bizim günümüzə ağlamır.

## *SƏNİN ÜÇÜN*

Bəxtəvər başına
sən ağlaya bilirsən,
ağlayıb dirilirsən.
Sonra da yaşayırsan
kefin kök, damağın çağ,
Mən sənin üçün ölə bilirəm ancaq.

***

Yarpaqlar günəşə uzalı əllər,
Yazdan payızacan işıq əmərlər,
Günəşdən doyanda saralır onlar,
Torpağa ələnir, qaralır onlar.
Günəşdən doyanlar torpaq olurlar…
Qışda gün həsrəti çəkən torpaqlar,
Baharda çevrilib yarpaq olurlar.

## *FƏSİLLƏR*

Yayda qum üstündə anamız günəş,
Qızıl tellərilə göz dağlayacaq.
Payızda yarpaqlar tökülən zaman,
Buludlar ağlayıb yas saxlayacaq.
Qışda şirin dilli İsa bulağın,
Gözündə sözləri buz bağlayacaq.
Yazda ayağımı torpağa qoysam,
Əlimdə barmaqlar yarpaqlayacaq.

## *PAYIZ*

Budaqdan yarpaqlar uçub gediblər,
birinin xətrinə dəyiblər qalıb.
Günəş – gülöyşə nar gəzalı kimi,
içinin odunu yeyiblər, qalıb.
Yaman doluxsunub qara buludlar –
«Bir az da möhlət ver» - deyiblər, qalıb…

## *YAZ GƏLİB*

Yarpaqlar dolmalıq olub,
qızlar yeməli,
Nə oturmusan evdə, a dəli.

## *AĞLINI İTİRƏN ADAM*

«Ağlını itirib», -dedi, -filankəs,
Özü ondan əvvəl itəydi gərək.
Ağlı dabanında olan adamın,
Dabanı başında bitəydi gərək.

## *EY ULU TANRI*

Ağlıma güvəndim cavan yaşımda,
Bu yaşda arxasız qalmayım barı.
Yarəb, sən ağlımı alma başımdan;
Ağlımı almağın vacib olanda,
Əvvəl ömrümü al, ey ulu Tanrı!

## *GÖRƏ-GÖRƏ*

Hər ildən
O biri ilə
Ağaclar soyunur.
Günahlardan yuyunur,
                    Keçir!
gözümüz görə-görə,
                nəyə görə
tövbə eləmək gəlmir ağlımıza.

## *MACARLAR*

Macarlar ağacları kimi qamətlidi,
Özləri kimi yaraşıqlıdı.
Gözləri
Budapeştin gecələri kimi.
Cavanları cavan olduğuna görə,
Qocaları da qoca olduğuna haqlıdı.
Cavanları da, qocaları da
maraqlıdı.

## ***EHEY!***

Ya yuxusuzam, ya da acam –
Başladım əsnəməyə yenə.
Ehey!
Ordan bir ulduz üz at mənə!

## *ULDUZLARA DOĞRU YÜRÜŞ*

Hər ulduz bir evin pəncərəsinə bənzəyir,
Sevincli, qəmli, işıqlı, insan həyatlı.
Onunçün göylərin qapısını döyürük,
zaman piyada olub, biz atlı.

**1963**

## *ATAMIZI YANDIRMA*

Gözlərini geniş aç,
　　　　dünya böyüsün.
Uzağa bax, yollar uzansın.
Geniş düşün –
ağlın olacaq,
Həm də qoymazsan atamız yansın!

## *SAĞ OLSUN*

Sağ olsun qohum-qardaş
Dəridən-qabıqdan çıxdılar,
Ən yaxşı həkimləri yığdılar.
Həkimlər də alim idi,
Həkim deyildi…
Həsən kişinin
Canı qurtardı ağrılardan
öldü!

***

Alçalmaqdan qaçmağa
Ölüm gizli qapıdı.
Ölüm sonuncu yoldu
Tələsmə tez açmağa,
Bəlkə bir çarə oldu.

## SAATA BAXMA

Saatsız da danışmağın
qədrini bilən olur.
Öz vaxtında söz istəyən,
qərəlində gülən olur.
Saatsız da vaxt çatanda
bu dünyaya gələn olur,
vaxt çatanda ölən olur…

### ***OLMAZ***

Adam düşünə bilirsə,
Ona kömək gərək olmaz.
Adam ürəyində danışa bilirsə,
O heç vaxt tək olmaz.
Adam bircə dəfə ölür,
Ona görə də tez ölmək olmaz.
İnsandan hər şey olar,
Amma mələk olmaz.

### *OLMUR*

Hər gözəlin üzündə
        mütləq bir xalı olmur.
Hər başı olan kəsin
        başı bəlalı olmur.
Hər saqqalı ağaran
        el ağsaqqalı olmur.
Özün bax, özün ayır.

## *KİŞİLƏR*

Kişilər üç cürdü:
Biri əriyir gilə-gilə,
yaşayır dünyada gülə-gülə.
Biri də elə-belə yaşayır,
xırda-xırda, ölə-ölə,
Ölür axırda.
Qalanı bir sürüdü,
beynində kürüdü.

## *QADINLAR*

Biri sevincdi,
biri kindi,
biri kədərdi.
Qadınlar özləri qədərdi.
Hər biri özünə bənzəyir,
hər qadın öz barmaq
izinə bənzəyir.

## *RƏSUL RZAYA*

Şairin Allah vergisi olur,
Nigarın Koroğlusu,
xanımın əsli-nəsli.
Bunların hər biri bir ölkənin,
bir xalqın, bir millətin bəsidi.
Bunların hər üçü də səndə var,
şair, xanım, Nigar.

## *MƏHƏMMƏD FÜZULİYƏ*

Şairlik ən böyük dərddi,
Böyük dərdi olan kəslər
ölür can qurtarır barı.
Böyük dərdli şairləri
ölməz yaradıbdı Tanrı.

## *EYNİYİK*

Sənin əlin qabar-qabar,
Mənim ürəyim,
Onun beyni.
Hamımız eyni cür fəhləyik, qardaş,
eyniyik, eyni!

.

***

Biri ağlayır, biri gülür,
biri döyür, biri döyülür.
Dünyanın işi düzəlməyəcək,
Nə qədər ki, yollar qovuşana
yollar ayrıcı deyilir.

***

Kimi ömrünün axırına kimi ağlayır,

Kimi ömrünün axırına kimi gülür,

Kimi əvvəldən ömrünün axırına kimi ölür…

Rəsul Rza

lap əvvəldən, ömrünün axırından gəlir!

## *BALALAR*

Balalar dərsə gedirlər,
gül-çiçəkdilər.
Bu çiçəklər əlimizdən
nələr çəkdilər.

## *BALALARIMA MİRAS*

Özüm də belə görmüşəm,
Balalarıma sağlam can,
Görən gözlər, yaxşı əllər,
Bir də bu dünyanı vermişəm.
Bəyənərlər yaşayarlar,
bəyənməzlər dəyişərlər.

## *TƏNHALIQ*

Adam bolluğunda elə boğuluram hərdən,
Qaçmaq istəyirəm
evdən, şəhərdən.
Qohumdan, dostdan, tanışdan.
Özümün özümlə o qədər
söhbətim var,
Əgər vaxt tapıb danışsam.

**17.11.1999**

## *BALIQLARIN GÖZ YAŞI*

Balıqların göz yaşıdı dəniz,
Duzludu, yaşıldı,
yaxşıdı dəniz.
Balıqlar öldü getdi,
yaşadı dəniz.
Elə baxırsan yalandı,
belə baxırsan haqdı,
Yəni insanların göz yaşları torpaqdı?

**17.11.1999**

## *ALLAH SƏNƏ RƏHMƏT ETSİN, RƏSUL RZA*

Yenə sən çatırsan dadıma.
Bu rəngsiz dünyada,
        rənglərin düşdü yadıma.
Dünyada ikicə rəng qalıb –
        biri qan rəngi,
            biri də ağ yalan rəngi.

## *VAY KASIBIN HALINA*

Qar yağır qar üstünə,
Var yağır var üstünə.
Vay kasıbın halına,
Borcu yığar üstünə,
Özü də düşər pis günə.

## ***BAXDIQ***

Xalıq deyib göyə baxdıq,
Balıq deyib
                    dənizə.
Göydə xalığı olmayan,
Suda balığı olmayan,
Hansı göydə, hansı suda,
Çimib çıxıb təmizə.

## *ÇIXSAQ*

Dənizdən dalğaların sözünü çıxsaq,
Quşunu, balığını, duzunu çıxsaq,
Qara dənizdən qalacaq ağ su.
Heç dəniz də ola bilməyəcək,
Olacaq dəniz yuxusu.

## *DƏRDLİLƏR*

Birinin dərdi qarın aclığıdı,
O birininki acgözlük.
Elə bildilər birdir yolları,
Elə ilk addımdan düşdülər ayrı.

## *BÖYÜKLƏR*

Qohum-əqrəba
Vəzifəsizin arxasıdı,
Başqalarına görkdü.
Qohum-əqrəba
Vəzifəlinin əlavə yükÜdü.
Yayın cırcıramasında,
Çıxarda bilmədiyi kürkdü.

## SEÇMƏK ASANDI

Bir yanda azadlıqdı,
Bir yanda yağəppəyi.
Bu yerdə seçirlər
İnsanı, köpəyi.

## *KEÇİB GEDƏCƏK*

Döyülmüşsən, uduzmusan,
Hay salma, keçib gedəcək.
Özün döyəndə, udanda,
Əl çalma, keçib gedəcək.
Hər yandan kəsilib yolun,
Bağlanıbdı əlin, qolun,
Sinənə çökübsə ölüm,
Alçalma, keçib gedəcək.

## *AY KASIB*

Hara baxırsan, ay dünya,
Namərdlər bir mərdi basıb.
Xışmalayıb duz yerinə,
Yarama bu dərdi basıb.
Baxtın yoxdu, pulun yoxdu,
Yaxşı bir qonşun da yoxdu,
öl, ay kasıb.

## *TƏNHA ADAMLAR*

Tənha adamlarıq –
            kiçik adamlar.
Dörd milyard insanın arasında biz
doğulduq,
Boğulduq,
              Səssiz-səmirsiz.

## *KASIBLARIN GÖZ YAŞI*

İlahi, sən bu qədər bədbəxt
yaratmısan, -
Gözündə yaşa dönüb şikayəti, arzusu.
Ehtiyacın ağzına yazıqları atmısan,
Yəni belə az idi yer üzündə duzlu su?..
Ehtiyacı evində, ümidləri göydədir,
Kasıb arzularını göz yaşıyla göyərdir.

### *ÖMÜR*

Uzun şeydi ömür,
Adamlar ölmür,
          yaddaşı qurtarır.
Əslində,
          aldığın qaytarır.

## *MÖHLƏT*

Bir oğlum var, üç qızım,
Yeddi nəvə ulduzum var.
        Az vaxtım var, çox arzum var,
Allahdan möhlət istəyirəm.

## *TOYUNDU*

Bu dünya bir oyundu,
oynayanlar oyunçu,
qalanları qoyundu.
Vay qananın halına!
Oyna, bala, toyundu!

## *ÖVLAD, YAXUD ALLAH PAYI*

Allah sənə övladı pay veribsə,
Ağlını da üstündə veribdi.
Ağlını verməyibsə,
Allah sənə
Pis gündü, veribdi.

## *YARIŞ*

Yaman fırlanır
Bizim bu yer kürəsi.
Kiminin hünəri çatmır,
Kiminin nəfəsi.
Ona görə də zamandan geri qalır.
Onsuz da hər qaçışda
Birincilər olduğu kimi,
Arxada da biri qalır.

## *ADAM ÇOXLUĞU*

Nəhəng bir binada yaşayıram,
Məndən yuxarıda, aşağıda
Adam çoxluğundan mən təkəm,
Tənhayam, yadam…
Sağda, solda, adamdı, adam, adam.

## *YALAN KİMİN OĞLUDU*

Olan olandan doğulur,
Yalan kimin oğludu?
Yalan da yalandan doğulur,
Yalanlığı doğrudur.

## *ÖMÜR*

Ömür yaman şeydi,
Gedir dolana-dolana.
Seldi bulana-bulana,
Gül üstündə zümrüd şehdi.

## *DƏNİZİN NƏFƏSİ ÜZÜMƏ DƏYDİ*

İstədim tərsinə fırlayım yeri,
Dənizin nəfəsi üzümə dəydi.
Qayıdam, qayıdam, qayıdam geri,
Suda yaşadığım dövran gələydi.

## *ELƏ BİL*

Başın elə bil adam başıdı,
Dilin elə bil bülöv daşıdı.
Sözlərin bəs niyə kütdü?
Cavab tapsan yaxşıdı.

## *SÖZ*

Söznən sınmaz pəncərə,
Söz atma, qardaş, söz atma.
Söz atan uşaq sayılmır,
Şitənmə nahaq yerə.
Söz atarsan qəlbə dəyər,
                qəlb sınar.
Mənə inanmırsan əgər,
Sənə söz atan olanda
Sən öz-özündə sına.

## *KÖNLÜMDƏN KEÇƏNLƏR*

Ömrüm mənim sahilsiz gecələrdi,
Qəlbim mənim adamsız küçələrdi..
İnsan ömrü sayılan gözəlliklər,
Yazıq canım, könlümdən keçənlərdi.

## *SƏHƏRİ HANI?*

Dünya, bu nə sahilsiz gecədir düşdüm,
Dünya, bu nə qurtarmaz kədərdir içdim.
Ya rəbb, bu keçilməz ömürdü keçdim,
Dünya, bəs bu gecənin səhəri hanı?

## *YA DA*

İlhamım ekiz doğulub mənimnən,
İndi ürəyimdə vulkan kimi oynayır.
Ya şer olub çıxacaq,
Ya da canım kimi çıxacaq bədənimdən.

## *PİRAT GƏMİSİ*

Mənim bayrağımdı yaşıl ağaclar,
Mənim qoşunumdu dünyada aclar.
Yaşamaq uğrunda ölürük biz də,
Yalnız xatirədir ömür kirəmiz.
Ulduzlar sayrışan mavi dənizdə,
Pirat gəmisidir bu yer kürəmiz.

## *ŞEYTAN DEYİR*

*Bir dəli şeytan deyir,*
*Dur qadasın al bunun*
*(Xalq mahnısı)*

Bir dəli şeytan deyir,
Vur ağzını əz bunun.
Ağzı əzilmiş olsa,
Burnu görünməz bunun,
Hər işin arxasında.
İşləri alt-üst edən
Təftişin arxasından.

## *AĞACDAN DÜZƏLİR*

Meydan sulayan nadanların,
Başı o başdan düzəlir.
Ağac kəsən baltaların,
Sapı ağacdan düzəlir.

## *HEYKƏLTƏRAŞ*

***Elmira xanıma***

Heykəltəraşdı,
Daşlar arasında susan adamdı,
Adamlar içində danışan daşdı.
Ani bir gülüşdü,
Bir damla yaşdı.

***

Dünən biri mənə yalan deyirdi,
Onu utandırmamaq üçün aldandım,
Ürəyində o, məni avam saydı.
Dedim nə olar, bu da belə bir
adamdı.

**1963**

## *ARVAD SÖZÜNƏ BAXAN*

Qınamayın məni,
Uşaqlıqda qadın laylasına yatmışam,
Çox sevirəm ənənəni.

**1963**

## *ÖZÜNÜZƏ KÖMƏK EDİN*

Vicdan - həya deməkdir.
Vicdan – ürəkdə təkdi,
Həmin ürəkdəki əclaflıqlara qarşı,
Arabir öz işinizə də qarışın.
Öz vicdanınıza da
Öz köməyiniz gərəkdi.

**1963**

## *KAMÇATKA VULKANLARI*

Yandım, susuzam, istəyirəm vulkan içim mən,
Şimşək kimi hərdən alışır göz bəbəyimdə.
Ruhumdakı üsyan eləyən vulkan içimdən.
Hər yanda yanan gözləri gördükcə deyirsən,
İnsan doğulub lap elə bil vulkan içindən.

**Kamçatka, 1964**

## *QORXMURAM VƏ QORXURAM*

Qorxmuram ölməkdən,
Qorxuram ki, mən
Ölmək lazım gəlsə,
Ölə bilməyəm.

**1963**

***

Heç açmayaq bu sirri,
Kasıbların cibi çoxdur,
Dövlətlinin qazanc yeri.

**1963**

## *SƏKİLƏR*

Çalın-çarpaz küçələr,
düyün-düyün səkilər.
Sinənizdə quş kimi
döyündüyüm səkilər.
Çox da öyünməyin siz,
dağılardı səkiniz,
Küçələrdən keçsəydi,
qəlbimizdən keçənlər.

**1964**

## ***İNFARKT***

Ürək doğuldu,
 böyüdü, yaşa doldu,
İnfarkt oldu.
Yüz yana yozdular səbəbini,
Axtardılar çarəsini də.
Əsil səbəbi
        ani intizar idi
«hə» ilə «yox» arasında.

**1966**

***

Xəncər kəsmir qınını
Kəsərdi,
Onu qoymur
Mərdliyin sərt qanunu.

**1963**

## *QANUNDAN KƏNAR*

Qanundan kənar iki addım atırıq dünyada,
Biri dünyaya gələndə, o biri də
hə də…

**1963**

## *PAYIZ*

Günəşə bənzəməkçin yarpaqlar saraldılar,
Yerə şölə salmayıb, yenə kölgə saldılar.

.

### *BAŞA DÜŞDÜM*

Dedilər; «səbr elə», səbrə and içdim.
Dedilər; «səbr edən böyükdür, haqdı».
Səbr edib, səbr edib, mən başa düşdüm
Ən böyük səbrli uzunqulaqdı.

## *ÖMRÜN YÜKÜ*

Ağlın əzabı,
Təsadüfən boynuna düşən
Müvəqqəti bir yükdü.
Ağılsızlığın əzabı
Ömürlükdü.

## *QÜRBƏTDƏKİ HƏMVƏTƏNLƏRİMƏ*

Qəriblərin yorğun gözləri,
Bir çimir vətən yuxusu istəyir.
Balıq yeyiləndən sonra da
Su istəyir.

## *ACGÖZ ARVAD*

Acgöz arvadın,
Allahı pul olur.
Əri qul olur,
Özü də axırda dul olur.

## *HƏMİŞƏCAVANLARA*

Şairlər cavan qalmağın
sirrini bilir.
Şairlər çox gec qocalır,
Ya da heç qocalmır –
cavan ölür.

## *HƏMSÖHBƏT*

Ürəyim darıxanda,
abırlı bir yerə getmək istəyəndə,
abırlı bir söhbət etmək istəyəndə,
çıxıram sahilə.
altıma qoyuram daşı,
atıram qarmağı.
Dənizdən yaxşı yer,
Balıqdan yaxşı söhbət yoldaşı…

***

Yaxşıya yaxşı deyək,
yamana yaman deyək.
Kinliyə soyuq deyək,
sevənə yanan deyək.
Hər kəsə şükr deyək,
namərddən aman deyək.

***

Dedim adamın evinin işığı olaydı,
arvadı, uşağı olaydı.
Maşını, bağı olaydı,
Oldu, oldu, oldu!
Dedim adamın dünya malından
gözünün doymağı olaydı,
Olmadı, olmadı, olmadı!

***

Bir dəfə ölən insan
sonra ölümsüz olur.
Yəqin ki, o məqamda
ölüm adi söz olur.

***Yusif Səmədoğluna***

«Ölümün mübarək», -demişdi, -
«Qətl günü»ndə.
Çox yaşamamışdı,
İçinə soyuq yağışlar yağmışdı.
Zamanın soyuğundan üşündü,
düşündü,
Gəl, hardasan gözəl ölüm.
Gəlmirsənsə, özüm gəlim.

***

Yaş da o yaş deyil, can o can deyil,
Qapılar bağlayaq, qapılar açaq.
Gəl verək şəhəri bu maşınlara,
İnsanlar yaşayan yerlərə qaçaq.

***

Çox namərd dünyadır, haqsızdır fələk
Allahım dünyanın ipini yığmır.
Burnumu bu işə soxmayım gərək,
Burnum çox yekədir, hər yerə sığmır.

***

İnsan

istəyir aqil olsun,

istəyirsə nadan,

insan özü gedir dünyadan,

heç kəsin köməyi olmadan.

Bu tabutda qalan

insan tullantısıdı.

Gedən hansıdı?

Qalan hansıdı?

Kimin yasıdı?

## *TƏZƏ NAĞIL*

Ağlı olan
Yolunu itirməkdən qorxur,
Yolu olan
Pulunu…
Qurtar bu yolsuzluq
Nağılını…

## *DÜNYANIN BAŞI*

Deyirsiz:
-dörd cəhəti var bu həyətin,
Deyirəm:
-dünyanın cəhəti dörd deyil, beşdi!
Dördü əl-ayaqdı, biri də başdı,
Düşünən beyni var bu kainatın.

### *EHTİYATLI OLUN!*

Ehey!
Dünyada Xəzər adlı
bir dəniz var.
Yanında kibrit çalmayın,
yanar.

***

Qopur,

qopur

hər quşun qanadından

bir dalğa.

Toplanıb tufan olur,

Burulub tüğyan olur.

Çarpışır düzlə, dağla,

Küləklər.

## *ULDUZLAR VƏ ÜRƏK*

Ulduz ulduzu çağırır
Göyün gen sinəsində.
Mən isə bir lampanın
altında oturmuşam.
Pərvanələr uçuşur
başımın dövrəsində.
Elə bil ki, mənəmmiş
sizin gəzdiyiniz şam.
Axı siz həssassınız anlayıram, qanıram,
Yaxşı bilmisiniz ki,
Mən özüm də yanıram.

1959

## *KÜLƏKLƏR*

Küləklər Mərdəkanada
Yuxusuz yaşayırlar.
Dalğaların səsini,
Yarpaqların, güllərin
Şirin rayihəsini
Küçələrə, evlərə,
Bağlara daşıyırlar.

1960

## XƏSTƏ VƏ HƏKİM

- Bir az ömür istəyirəm,
bir az da, bir az da…
Bir əsr azdır, beş əsr də,
On əsr də azdır.

Həkim heyrətlə
        xəstənin nəbzindən
çəkdi əlini.
- Bəs nə qədər?
-Beş gün də olsa,
bilməyim qədərini.

**1965**

***

«Yaşamaq – çətindir!»,
kimi də deyir «asandır!».
Amma heç «yaşamayan»,
nə elə deyən,
nə də belə deyən,
Hər ikisinin də təsdiq eləyən –
Hər ikisinə də qulaq asandır.

**1966**

***

-Niyə susursan?
-Yaydan çıxmış oxdu,
«Dayan» deməyin xeyri yoxdu!

## *DOLANIRIQ*

Otlar torpağı yeyir,
qoyunlar otları.
Biz qoyunları yeyirik,
torpaq bizi.
Dolanırıq, yaşayırıq
bir-birimizi
yeyə-yeyə,
Allah, çox şükür deyə-deyə.

***

Əsl kişilər alçalmaz ölər.
İmdad deyənə rəhm edin, inanmayın,
Alçalmağa öyrənib pənah gətirənlər.

**1963**

## *AYAQLARIM*

Yollar görüb üzləri,
Mənim ağır ömrümün
Bu yorğun öküzləri

**1963**

## *GƏLDİM Kİ...*

Gəldim ki, dərdimi suya danışım,
Suyun da dibindən sən çıxdın üzə.
Qurbağa, ay dostum, köhnə tanışım,
Niyə biz lal kimi durduq üz-üzə.

Yox, nəsə deyirdin elə bu zaman,
Ağzına su doldu, sən quruldadın.
Yaman oxşayırsan mənə, a heyvan,
Nə olar qurbağa olanda adın.

## *QORXAQ*

Toyda soruşma məni,
Yasda soruşma məni.
Bərkdən soruşma məni,
Asta soruşma məni,
Düşər-düşməzi olar.
Adam ol, bir sözə bax.
Ay canım, qoy dolanaq.

***

Titrəmək yaraşmır insan səsinə
Zəfərlə yaşayaq, zəfərlə ölək.
Mənim məzarım da yer kürəsinə,
Düşəcək bir nida işarəsi tək.

Namərdəm məsləksiz gözlərim gülsə,
Düşmənəm acizin fəryad səsinə.
Məsləkim uğrunda bina tikilsə,
Qoy məni hörsünlər bünövrəsinə.

## *PAYIZ*

Payız düşüb
Külək əsir,
yarpaq yoxdur ağacda,
Döyəcləyir bir tərəfdən
üzüsoyuq yağış da.
Bir ağacın daldasında
bir xatirəm tək qalıb,
Yağış yağır, külək əsir
hava da ki, qaralıb.

## *YAŞAMAQ İSTƏYİRƏM*

Ayaqqabı olmasa,
yolları ayağıma geyərəm;
Paltarım olmasa,
qışda günəşin şəfəqlərini,
Yayada
ağacların sərin kölgəsini
geyərəm,
Yaşamaq yenə də şirindir – deyərəm.

## *İŞTAH*

Biri yalan danışdı,
Həyasız üzü yana-yana.
Dedi dənizi içmişəm,
Nə inandım, nə də ələ saldım.
Məəttəl qaldım
Zalım oğlunun iştahına.

## *ÖZ ARAMIZDI*

Zaman, sənin işarəni
    bilirəm, ha bilirəm.
Baş ağarır, diş tökülür,
Göz korlaşır, bel bükülür.
    Gəlirəm, ha gəlirəm,
Qana-qana, billə-bilə.
Kişi kimi gülə-gülə,
Ölürəm, ha ölürəm.

## *QADINLAR*

Qadınlar ömür adlı səhrada sudur,
Yanar qəlblərin arzusudur,
Yuxusuz aşiqlərin rəngli yuxusudur.
Qadınlar göydən yerə kimi yağışdı,
Qəzəblənəndə leysan adlı qarğışdı.
Bəzən seldi üzməli deyil,
Bəzən çaydı keçməli deyil.
Qadınlar dünyada su kimi çoxdur,
Çoxu da içməli deyil.

**2008**

## *EY ZAMANIN SAHİBİ*

Sonsuz əvvəldən gəlirəm,
    Sonsuz sona gedirəm.
Ey zamanı çalışdıran,
    Səndən sənə gedirəm.

## *YANIQ YERİ*

Mənim keçmişimi kim söndürübdü,
Hələ də tüstüsü başımdan çıxır.
Nə olar keçmişi yaşımdan çıxın,
Onsuz da gözümün yaşıynan çıxır.

## *AYIRMAQ OLMUR*

Bakıya hər tərəfdən
   axın gəldi, köç gəldi.
Millət elə qarışdı,
   insan elə kiçildi…
İndi ayırmaq olmur
   kim dazdı, kim keçəldi…

## *VAR İKƏN*

Dünyada bu qədər çəkməli dərd var ikən
atdım tənbəkini, tüstünü.
Dünyada bu qədər namərd var ikən
Səni neynirəm,
Çağırdım söhbətə qonşunun itini.
Adam kimi qulaq asır söhbətə, sözə.
Oturduq diz-dizə,
Gecə yarı üzgün ayla üz-üzə
Dünyanı yuxudan eyləməyək deyə,
uladıq üzü göyə…

## *BİLMƏK OLMUR*

Bu dünya bir dayanacaq,
Kim nə qədər dayanacaq
bilmək olmur.
Vaxtından tez gəlmək olmur.
Vaxtından tez ölmək olmur.

## *SƏFƏR*

Ayrılıq qapını bir gün döyəcək,
Qolundan yapışıb «gedək» deyəcək.
Arxaya boylanma, geriyə baxma,
Sənsiz qalanları yandırma, yaxma.
Heç bu da son deyil, sondan əvvəldi,
Bu da bir səfərdi, zamanı gəldi.

## *DƏRD ELƏMƏ*

Xalq gözəl deyibdi kökünə varsaq:
«Mərdi qova-qova namərd eyləmə».
Bir mərd qovulanda namərd olursa,
Sən bunu özünə bir dərd eyləmə.

### *HAQQ VAR, AMMA…*

Hamının yolu yoxuşdu,
Kimin ki, başı boşdu
elə cibi də boşdu.
Cibinin boşluğunu
bilir hər kəs.
Başının boşluğunu
bilmir heç kəs.
İndi gəl bu davanı
ədalətli kəs!
Haqq var, amma yarımçıqdır,
haqqı tapınca
canım çıxdı.

## *OLAR DA!!!*

Dəlinin dişi ağrıyır,
Yazıq ağlıyır, zarıyır.
Deyirlər ki, fikir vermə, dəlidi!
Adam dəli olar da!!!

***

Bu dünya bir oyuncaqdı,
Sevinci də doyuncadı,
Kədəri də doyuncadı.
Sevinci də, kədəri də,
Hər kəsin öz boyuncadı.

## HƏR KƏS

Hər kəs getmək üçün yarandı, doğuldu,
Ömür müdrikliyə gedən yoldu.
Kimi tez çatır,
Kimi gec,
Kimi də heç…

## *YÜK*

Qarnı burnuna dəyən kişilər,
Ayağa qalxmaq üçün
tövşüyər, kişnər…
Gözləmə, doğan deyil,
Guruldayır, yağan deyil.
Yükü ağır yükdü,
ömürlükdü…

## *LEYSAN ARZUSUNDA*

Bu taleylə gərək mən
Nə dünyaya gələydim,
Nə də belə ağrıyaydım.
Barı leysan yağaydı,
O yağışın altında
Üzümü göyə tutub,
Doyunca ağlayaydım.

## *BARI ZƏHMƏTİM İTMƏSİN*

Nə vaxt arvadı istədim,
Gördüm ki, namaz üstədi.
Barı zəhmətim itməsin,
Mənsiz cənnətə getməsin.

## *KÖÇ*

Mənim bir qaçan yerim var,
Mənim bir köçən yerim var.
Tanrım, kömək et köçümə,
Yığışıb köçürəm daha
Öz çölümdən öz içimə.

## *İSTƏYİR, İSTƏMİR*

Azadlıq istəyir dünyada insan,
Qanunlar, qaydalar qəfəsdir, qəfəs.
Yalnız ölən zaman azad olursan,
Ölmək də istəmir dünyada heç kəs.

## *BİRİ MƏNƏ DEDİ*

- Yaraşmayır yaşına,
Bir şapka qoy başına;
Başı açıq olmaqla
İnsan mələk olmayır.
- Bu mənim öz işimdi,
Allahla aramızda
«Şapka» gərək olmayır.

## *DƏRDİM*

Dərdimi məzarıma qoyun,
Məzarımın başına dolanıb
quyruq bulamasın.
Zülmət gecələrdə
Yalquzaq kimi ulamasın,
Oyadacaq əcdadımızı.

## *ALLAH AĞIL VERİBSƏ*

Allah ağıl veribsə,
pulun- paran olacaq.
Allah ağlını alıbsa,
Qazandığın hamısı haram olacaq.

## *ƏZRAİLİN ALLAHA ŞİKAYƏTİ*

Havadan insanlar zəhərlənir, ölür,
Sudan balıqlar.
Allahım, mənim işimi əlimdən alıblar.

## *AMMA HA…*

Birini öldürmək həddinə çatanda,
Silaha əl atanda,
bir an düşün:
Onsuz da bu əvvəl-axır öləcək –
Çalış ondan uzun ömür sür,
Onun ölümünü gör.
Gör, bayram eləmə amma ha…
Özünü ölümsüz sanma ha…

## *MAT QALMIŞAM*

İnsan yaranmışıq,
Bu da Allahın verdiyi
Xoşbəxtlikdi, gözəl baxtdı.
Dünyada insan axtarıram
  günün günorta vaxtı,
əlimdə şam;
Bunlar insan ola-ola
Niyə çaqqalıq eləyir,
Mat-məəttəl qalmışam.

## *YOX, YOX*

Qarnı toxla, gözü tox, -
Varı çoxla, ağlı çox, -
Yox, yox! Vallah bir də yox,
eyni adam deyillər.
Onlara uzanan əllər
Bunu yaxşı bilirlər –
eyni adam deyillər.

### ***İNDİ***

İndi hörmət pul olub, pul sayılır,
Qalan hər şey pula bir qul sayılır.
Pula qəlbin verən pul aşiqinin
Özü sağkən qarısı dul sayılır.
Hər zaman var kişilik mərtəbəsi
Orda çox varlılar yoxsul sayılır.

## *MƏN QANIM, YA QANMAYIM*

Qansam əgər, bəlkə başım daşdan-daşa dəyəcək,
Qanmaz olsam, dərd çəkmərəm, bunu gərək danmayım.
Bu da var ki, onda məndən çiçəklər inciyəcək,
İndi düzü mat qalmışam, mən qanım, ya qanmayım.

Qansam, gərək həmdəm olam hər tanışa, hər yada,
Necə qanım qanmazların halına mən yanmayım.
Mən qanmasam, bir qanmaz da artacaqdı dünyada,
İndi düzü mat qalmışam, mən qanım, ya qanmayım.

***GƏLƏCƏYİK ÜZ-ÜZƏ KÜÇƏLƏRİN BİRİNDƏ,***

***SƏNİN ÜZÜNDƏ QIRIŞ, MƏNİM SAÇLARIMDA DƏN...***

***BARI YAĞAYDI YAĞIŞ, GÖYLƏR AĞLAMIR NƏDƏN?***

## *BAXDIM*

Bir könülün
 iki yanar ocağına,
Baxdım, yandı baxışlarım,
Düşüb odlar qucağına.
Bax, mənə bax,
Baxışının əzabları
Yağsın, yağsın baxışıma.
Rəhmli ol,
Bu əzabdan bir gilə də
Özgəsinə bağışlama.

## *BAXIR*

Sevgi elə bəladı
Baxar,
Canını yaxar,
Ona çarə qılmaz ana, bacı, əzizim.
Eşqin min bir dərdi var, bir əlacı əzizim,
«Lənət şeytana» - deyib, canı cana qovuşdur,
Ömür də sevgi kimi uçub gedəri quşdur.

***

Baxıb uzaqdakı xatirələrə,
Dağ boyda dərdimi, qəmimi hərdən
Gizlətdim kədərli gülüşümdə mən,
Eh…nahaq yerə…

**1963**

## *NƏ FƏRQİ*

Bir ev qurulmamış dağıldı getdi,
Məhəbbət din idi dinsizik indi.
Saçlara dən düşdü cavanlıq ötdü,
İndi nə fərqi var günahkar kimdi?

2008

***SƏN YAZDIRDIN***

Səhər bir gül ağlayırdı,
Göz yaşına şeh dedilər.
Bahardan xəbər gəlmişdi,
O xəbərə meh dedilər.

Bu duman keçdi dağlardan,
Duman dağın ahı oldu.
Mənim şeir yazmağım da,
Yarın bir günahı oldu.

## *SƏNİN HÖKMÜN*

O gözlər hökmündən mən necə çıxım,
Göylərdən genişdir səmavi gözü.
Qorxuram kövrəlib ağlayar birdən,
Yağışa qərq olar bütün yer üzü.
Dönər bu dünyaya, o elə baxar,
Kövrələr, qayalar, daşlar əriyər.
Elə qəzəblənər, yandırar, yaxar, -
Dağlar dik atılar, qalxar, yeriyər.

***

Dodaqların Füzulinin iki
şirin misrasıdı.
Özün tap, oxu
hansıdı.
Gözlərin yazılmayıb hələ,
nazın çəkilməyib hələ.
Eh…
işimiz varmış indən belə.

## *DİLİN BƏLASI*

Dedim şoferə: tez sür! Məni çatdır yarıma,
Çatım arzularıma.
Şofer üzümə baxdı, tez saxladı maşını,
Dedi: dönəsi olduq burdan geriyə birbaş,
Yamanca yerdə saldın yarı yadıma, qardaş

### *ÜMİD*

Bir yol gördüm, görən kimi itirdim,
Bəxtim kimi məndən döndü baxışlar.
A «bəlkə»lər, sizə pənah gətirdim,
Axtarıram bu şəhərdə hanı yar?..

Axtarıram, dincliyim yoxdu bir an,
Bir cüt gözü gəzirəm bir ölkədə.
Ayaq deyir: yorulmuşam, bir dayan,
Ürək deyir: gəzək, bəlkə, bəlkə də…

**1959**

## *BİR VAXT*

Gələcəyik üz-üzə küçələrin birində,
Sənin üzündə qırış, mənim saçlarımda dən;
Bir soruşan da olmaz donub qalmışıq nədən.
Adamlar gəlir, gedir, kimi vədə gözləyir,
Gözləyənə nə var ki, lap küçədə gözləyir.
Bizim rəngimiz qaçar gözlənilməz görüşdən.
Ayaqlar öz işində, onlar bənzər zamana,
Çəkib aparar bizim hərəmizi bir yana,
Sənin üzündə qırış, mənim saçlarımda dən.

## *SƏNDƏN NƏ YOZ*

Səndən nə yoz,
bu gecə yuxuma girmişdin?
Qorxmadın ki, yuxumdan
çıxıb gedə bilməzsən?
Qorxmadın ki, bu yuxunu
sonra tərgidə bilməzsən?
Axı yuxu gözümdən də,
özümdən də içəridi.
Sən çoxdan düşmüsən gözümdən
Bir damla göz yaşım kimi,
Bu gecə necə girdin yuxuma?

## *MƏN YOXA ÇIXDIM*

Axtarın məni özgə bağında,
barmağımın izi qalıb saçlarında,
gözümün izi dodağında.
Dodağımın izi qalıb yanağında,
axtarmayın, kül oldum, yandım daha…

## *MƏHƏBBƏT MACƏRAM*

Sənə ürəyimdə könlümü verdim,
Sənə ürəyimdə yaman vuruldum.
Ürəyimdə sənin eybini gördüm,
Səni sevdiyimə peşman da oldum.
Yenə dolanıram kədərli, yalqız,
Səni ürəyimdə odlara saldım,
Heç nədən xəbərin olmadı, ay qız

## *GÜN ÜZLÜM*

Gün üzlüm, gecə var bu zülmət
saçında,
Hara qaçacağam səndən qaçanda.
Gecəylə gündüzün qovhaqaçında
Doğuldum, böyüdüm, yaşadım, öldüm.

## *MƏHƏBBƏTSİZ*

Bir evdə məhəbbət olmasa əgər,
Qızıldan olsa da o evin damı,
Orda ürək sızlar, könül qəm yeyər.
Bir gün görməyəcək evin adamı,
Bir də görəcək ki, ömür-gün keçdi,-
O ev qan qusduğun qızıl bir teştdi.

*LEYLİ-MƏCNUN NAĞILI*

Bir binada doğuldu,
Qonşu, yoldaş oldular.
Bir məktəbə getdilər,
Bağrı-badaş oldular.
Onlar Leyli-Məcnun da
Yavaş-yavaş oldular.
Toy oldu uzun illər,
Göz ilə qaş oldular.
Yarıdılar
            Ömürdən
Yaşayıb qarıdılar.
O qədər yaşadılar,
Bacı-qardaş oldular.

### *ƏLVİDA*

Səhra da dənizdir, dəniz! – deyirsən,
Gəl bu səhrada üz – deyirsən.
Döz – deyirsən,
Gözəl söz deyirsən,
Düz deyirsən.
Mən yaxşı üzə bilirəm,
                    amma suda…
                    Əlvida, əzizim əlvida!!!

***Kitabın içindəkilər:***

Xoşum gəlir ............................................... 5
Hər ürək – oxunmamış bir varaq ............... 6
Yer kürəsi fırlanır ....................................... 7
Günəş ......................................................... 8
Gülün gözəlliyi öz qatilidi ......................... 9
Ömür haqqında ........................................... 10
Mən çox dözümlüyəm ................................ 11
Dövrümüz ................................................... 12
Nə bilim ..................................................... 13
İnsanam ..................................................... 14
Asandır ...................................................... 15
Yaranmışlar ................................................ 16
Keçid ......................................................... 17
Alçaq, yüksək damlar ................................ 18
Vaqif Səmədoğlu ........................................ 19
Bir dost axtarırdım ..................................... 20
Olmaz ........................................................ 21
Yuxuyozanlar ............................................. 22
Vətənpərvər ................................................ 23
Öldü varlı ata, qaldı varisi .......................... 24
Acgöz ........................................................ 25
Əlac yoxdur ................................................ 26
Kəsmə yalan ağacını .................................. 27
Kökü varsa ................................................. 28

Qaya .......................................................... 29
Babalarım .................................................... 30
Çeçenlərin səsi ........................................... 31
Vətən haqqında ........................................... 32
İnsan .......................................................... 33
Sehrbaz zaman ........................................... 34
Günəş səyyarələrin tonqalıdır ..................... 35
Gileylənməyir .............................................. 36
Çağrılmamış bayatı .................................... 37
Bir yol üstə ................................................. 38
Əsl kişilər ................................................... 39
Dənizdə susuz ............................................. 40
Göz yaşı deyil ............................................. 41
Sənin üçün .................................................. 42
Yarpaqlar günəşə uzalı əllər ........................ 43
Fəsillər ........................................................ 44
Payız .......................................................... 45
Yaz gəlib .................................................... 46
Ağlını itirən adam ....................................... 47
Ey ulu Tanrı ............................................... 48
Görə-görə ................................................... 49
Macarlar ..................................................... 50
Ehey! ......................................................... 51
Ulduzlara doğru yürüş ................................ 52
Atamızı yandırma ........................................ 53
Sağ olsun .................................................... 54
Alçalmaqdan qaçmağa ............................... 55
Saata baxma ............................................... 56
Olmaz ......................................................... 57
Olmur ......................................................... 58

Kişilər ........................................................ 59
Qadınlar ...................................................... 60
Rəsul Rzaya ................................................ 61
Məhəmməd Füzuliyə ................................. 62
Eyniyik ....................................................... 63
Biri ağlayır, biri gülür ................................ 64
Kimi ömrünün axırına kimi ağlayır ........... 65
Balalar ........................................................ 66
Balalarıma miras ........................................ 67
Tənhalıq ..................................................... 68
Balıqların göz yaşı ..................................... 69
Allah sənə Rəhmət etsin, Rəsul Rza ........... 70
Vay kasıbın halına ...................................... 71
Baxdıq ........................................................ 72
Çıxsaq ......................................................... 73
Dərdlilər ..................................................... 74
Böyüklər ..................................................... 75
Seçmək asandı ............................................ 76
Keçib gedəcək ............................................. 77
Ay kasıb ..................................................... 78
Tənha adamlar ............................................ 79
Kasıbların göz yaşı ...................................... 80
Ömür .......................................................... 81
Möhlət ........................................................ 82
Toyundu ..................................................... 83
Övlad, yaxud Allah payı ............................. 84
Yarış .......................................................... 85
Adam çoxluğu ............................................. 86
Yalan kimin oğludu ..................................... 87
Ömür .......................................................... 88

Dənizin nəfəsi üzümə dəydi ........................ 89
Elə bil ......................................................... 90
Söz ............................................................ 91
Kölümdən keçənlər ..................................... 92
Səhəri hanı ................................................... 93
Ya da ........................................................ 94
Pirat gəmisi ................................................ 95
Şeytan deyir ................................................ 96
Ağacdan düzəlir .......................................... 97
Heykəltaraş *(Elmira xanıma)* ...................... 98
Dünən biri mənə yalan deyirdi..................... 99
Arvad sözünə baxan .................................... 100
Özünüzə kömək edin ................................... 101
Kamçatka vulkanları .................................. 102
Qorxmuram və qorxuram ............................ 103
Heç açmayaq bu sirri .................................. 104
Səkilər ........................................................ 105
İnfarkt ........................................................ 106
Xəncər kəsmir qınını .................................. 107
Qanundan kənar ......................................... 108
Payız .......................................................... 109
Başa düşdüm ............................................... 110
Ömrün yükü ............................................... 111
Qürbətdəki həmvətənlərimə ....................... 112
Acgöz arvad ............................................... 113
Həmişəcavanlara ......................................... 114
Həmsöbət .................................................. 115
Yaxşıya yaxşı deyək ................................... 116
Dedim adamın evinin işığı olaydı ............... 117
Bir dəfə ölən insan ..................................... 118

Yusif Səmədoğluna .................................... 119
Yaş da o yaş deyil, can o can deyil ............. 120
Çox namərd dünyadır, haqsızdır fələk ........ 121
İnsan istəyir aqil olsun ................................ 122
Təzə nağıl .................................................... 123
Dünyanın başı ............................................. 124
Ehtiyatlı olun! ............................................. 125
Qopur ........................................................... 126
Ulduzlar və ürək .......................................... 127
Küləklər ....................................................... 128
Xəstə və həkim ............................................ 129
Yaşamaq çətindir ......................................... 130
Niyə susursan? ............................................. 131
Dolanırıq ..................................................... 132
Əsl kişilər alçalmaz ölər .............................. 133
Ayaqlarım .................................................... 134
Gəldim ki... .................................................. 135
Qorxaq ......................................................... 136
Titrəmək yaraşmır insan səsinə ................... 137
Payız ............................................................ 138
Yaşamaq istəyirəm ...................................... 139
İştah ............................................................. 140
Öz aramızdı ................................................. 141
Qadınlar ....................................................... 142
Ey zamanın sahibi ........................................ 143
Yanıq yeri .................................................... 144
Ayırmaq olmur ............................................ 145
Var ikən ....................................................... 146
Bilmək olmur .............................................. 147
Səfər ............................................................ 148

Dərd eləmə ................................................ 149
Haqq var, amma... ....................................... 150
Olar da!!! .................................................. 151
Bu dünya bir oyuncaqdı ............................. 152
Hər kəs ....................................................... 153
Yük ............................................................ 154
Leysan arzusunda ....................................... 155
Barı zəhmətim itməsin ................................ 156
Köç ............................................................ 157
İstəyir, istəmir ............................................ 158
Biri mənə dedi ............................................ 159
Dərdim ....................................................... 160
Allah ağıl veribsə ....................................... 161
Əzrailin Allaha şikayəti .............................. 162
Amma ha... ................................................. 163
Mat qalmışam ............................................. 164
Yox, yox ..................................................... 165
İndi ............................................................ 166
Mən qanım, ya qanmayım ........................... 167
Tərcümeyi-halım ........................................ 168
Oxucum ...................................................... 169
Baxdım ....................................................... 171
Baxır .......................................................... 172
Baxıb ......................................................... 173
Nə fərqi ...................................................... 174
Sən yazdırdın .............................................. 175
Sənin hökmün ............................................ 176
Dodaqların .................................................. 177
Dilin bəlası ................................................. 178
Ümid .......................................................... 179

Bir vaxt ........................................................ 180
Səndən nə yoz .............................................. 181
Mən yoxa çıxdım ......................................... 182
Məhəbbət macəram ..................................... 183
Gün üzlüm .................................................... 184
Məhəbbətsiz ................................................. 185
Leyli-Məcnun nağılı .................................... 186
Əlvida ........................................................... 187